# İNFORMASİYA CƏMİYYƏTİ VƏ KİTABXANALAR

*Kitabxana xalq, millət üçün, cəmiyyət üçün müqəddəs bir yer, mənəviyyat, bilik, zəka mənbəyidir.*

*Heydər Əliyev*

Müstəqil Azərbaycan Respublikasının yeni dövlət quruculuğu illərində bəşər həyatının bütün sahələrinə sirayət edən qlobal informasiyalaşma prosesləri milli mədəniyyətimiz, bilik, elm, tədris və informasiya təminatçısı olan kitabxanaların rolunun daha da artmasına səbəb olmuşdur. Kitabxanaların yeni funksiyalarının mədəni-sosial dəyişikliklərlə şərtlənən transformasiyası kitabxana siyasətinin də yeni əsaslarda formalaşmasını tələb edir. Bu sahədə əsas vəzifə isə informasiya cəmiyyətinin ümumi inkişaf axarında, informasiya texnologiyaları ilə təmin olunmuş, əhaliyə yüksək səviyyədə xidmət servisi təqdim edən, milli-mədəni irsimizin əsas tərkib hissəsi olan kitab fondlarının, ümumiyyətlə milli informasiya resurslarının mühafizəsi və konservasiyası qayğısına qalan modern kitabxanaların formalaşmasıdır.

İndi kitabxanalar müasir cəmiyyətin infrastrukturunun daha çox kəsişdiyi bir sahəsi olub, bu faktorlarla daha sıx bağlandığına görə, digər mədəniyyət-maarif müəssisələrindən əsaslı surətdə fərqlənir.

Son onilliklər ərzində Azərbaycan kitabxanalarının inkişafında bir sıra təqdirəlayiq fəaliyyət sahələri, yeniliklər, xoşa gələn işlər baş versə də, bu inkişaf ümumrespublika səviyyəsində müxtəlif sahələrdə, o cümlədən, kitabxanaların pasportlaşdırılması, onların gələcək fəaliyyətinin strateji planlaşdırılması, vahid milli məlumat-informasiya məkanının yaradılması, müxtəlif iş proseslərinin avtomatlaşdırılması, kitabxana işçilərinin metodiki hazırlığı və fasiləsiz təhsili sisteminin təşkili, beynəlxalq və milli standartların qəbul edilməsi, xarici ölkə kitabxanalarının iş təcrübəsinin öyrənilməsi və s. bu kimi əhəmiyyətli işlər hələlik özünün tam müsbət həllini tapmamışdır.

Kitabxanalar informasiya cəmiyyətinin «qan damarlarıdır» - deyirlər. Əgər bu damarlarda «informasiya tıxacları» mövcuddursa, o cəmiyyətin intellektual gələcəyi məhvə məhkumdur. Mədəniyyətimizin bu sahəsində tarazlaşdırılmış, koordinasiyalı, hüquqi bazaya əsaslanan milli siyasətin aparılması vacibdir və belə təcrübə nümunələri bir çox xarici dövlətlərdə yaradılmış və özünü müəyyən mənada doğrultmuşdur.

Məhz həmin məsələyə bu mövqedən yanaşan qonşu Rusiya dövlətinin Mədəniyyət Nazirliyinin Kitabxanalar İdarəsi ölkənin aparıcı kitabxanalarla birgə hazırladığı və 2002-2005-ci illər üçün nəzərdə tutduğu «LİBNET» («Ümumrusiya kitabxana-informasiya kompüter şəbəkəsinin yaranması») proqramı, Özbəkistanda «Bilik və Cəmiyyət» layihəsi üzrə reallaşdırılmış kitabxanaların inkişaf proqramı, Qazaxıstanda müvəffəqiyyətlə başa çatmış «2002-2005-ci illərdə Qazaxıstan respublikasının kənd kitabxanalarının inkişaf proqramı», Başqırdıstan Nazirlər Kabinetinin təsdiq etdiyi «2000-2005-ci illərdə Kitabxana işinin inkişafı proqramı» və s. ölkələrdəki zəngin təcrübələr buna nümunə ola bilər.

Son illər, müstəqil demokratik dövlət quran Azərbaycanda fəaliyyət göstərən xarici ölkələrin müxtəlif humanitar təşkilatları respublikanın kitabxanalarının inkişafına kömək etmək məqsədilə bir sıra əhəmiyyətli işlər görmüş, o cümlədən, kompüterləşdirmə, İnternet təminatı, kitabxana əməkdaşları üçün treninqlər, yay məktəbləri təşkil etmiş, beynəlxalq aləmdə qəbul edilmiş kitabxana-informasiya standartlarının, Avtomatlaşdırılmış Kitabxana Sisteminin, təsnifat cədvəllərinin milli aspektdə qəbul edilməsi üçün təşəbbüslər göstərmişlər. Lakin, qeyd edək ki, kitabxanalarımızın əksəriyyəti büdcədən maliyyələşən dövlət idarələridir və təəssüflər olsun ki, aid olduqları dövlət strukturları, çox halda onların ehtiyaclarını tam ödəmir. Bəzən isə göstərilən humanitar yardımların xərclənməsində, məqsədəuyğun paylaşdırılmasında, tətbiq sahələrinin dəqiq müəyyən olunmasında iştirak etmirlər və ya bu haqda nə donor təşkilat, nə də kitabxanaların rəhbərliyi vaxtında lazımi səviyyədə məlumatlandırılmırlar. Nəticədə, hər bir kitabxana «özü bildiyi kimi inkişaf edir».

SSRİ dağıldıqdan sonra, müstəqil demokratik dövlət quran Respublikamızda, inkişaf etmiş bir sıra xarici ölkələrin humanitar təşkilatları, səfirlik, firmalar və iş adamları iqtisadiyyat, sənaye və kənd təsərrüfatının müxtəlif sahələrində olduğu kimi, kitabxanaların inkişafına kömək etmək üçün xeyli iş görmüş, beynəlxalq aləmdə bu sahədə əldə edilmiş yeniliklərin Respublikamızda tətbiqinə səy göstərmişlər. Belə təşkilatlar arasında Soros Fondu ACİ-nun Kitabxana proqramı, Avroasiya fondu, ABŞ Səfirliyi nəzdində müəyyən müddət fəaliyyət göstərmiş və xeyli gərəkli işlər görmüş Kitabxanaçılar üçün Tədris və İnformasiya Mərkəzinin fəaliyyətini xüsusilə qeyd etmək olar. 2004-cü ildən Azərbaycanın regionlarında, informasiya texnologiyaları ilə təchiz olunmuş «Kitabxana-informasiya mərkəzi»nin yaradılması işinə başlanmış və onu müvəffəqiyyətlə davam etdirən ABŞ səfirliyinin Kitabxana İşinin İnkişaf Proqramının müsbət nəticələri aşkar hiss olunur. Eyni zamanda, Azərbaycanın bölgələrində, eləcə də iri şəhərlərimizdə yeni tipli kitabxanaların – bələdiyyə kitabxanası, muzey-kitabxana, biznes-kitabxana, hüquqi-işgüzar kitabxana-informasiya mərkəzləri və s. yaradılmasına ehtiyac gündən-günə artmaqdadır və onları gələcəkdə yaradılacaq qlobal informasiya cəmiyyətinə doğru atılacaq addımların başlanğıcı hesab etmək olar.



Son illərə qədər kitabxana sahəsində layihələri maliyyələşdirən humanitar fondlar –Soros Fondu Açıq Cəmiyyət İnstitunun «Kitabxana proqramı» (fondun 2002-ci ildə kitabxana sektoruna yardımı 200 min ABŞ dolları olmuşdur) Azərbaycan kitabxanalarının səylərinin birləşdirilməsində, işgüzar görüşlərinin mütəşəkkilliyində xeyli işlər görmüş ABŞ Səfirliyi nəzdindəki Kitabxanaçılar üçün Tədris və İnformasiya Mərkəzi, çox təəssüflər olsun ki, 2003-cü ildə bağlanmışdır. Adı çəkilən təşkilatların yardımı və respublikanın aparıcı kitabxanalarının, o cümlədən M.F.Axundov adına Milli Kitabxanamızın bilavasitə yaxından iştirakı ilə aparılan kompleks kurslar: - İngilis dili, Kompüter və İnternetin əsasları, ; Milli MARK formatının qəbul olunması; Elm və mədəniyyətin informasiyalaşdırılması; Kitabxana fondlarının mühafizəsi və konservasiyası və s. mövzularda - treninqlər, seminar-müşavirələr keçirmiş, onlar təkcə Bakı şəhərinin iri kitabxanalarını deyil, eyni zamanda Respublikanın Gəncə, Bərdə, Quba, Şəki, Əlibayramlı, Lənkəran, Şamaxı və s. şəhərlərinin Mərkəzi kitabxanalarını da əhatə etmişdir. Məhz bu görülən işlər nəticəsində Azərbaycan kitabxanaları və xarici ölkələrin ictimai birlikləri arasında iş birliyinin əsası qoyulmuş, kitabxanalar və kitabxanaçılar arasında, yaxşı mənada, səmərəli işgüzar əlaqələrin inkişafına rəvac verilmişdir.

ABŞ səfirliyinin «Kitabxana İşinin Regional İnkişaf Proqramı» çərçivəsində Azərbaycanın müxtəlif regionlarında görülən işlər 2004-cü ilin yanvar ayından başlanmışdır və onları yaxşı mənada, ancaq alqışlamaq olar. Bu tədbirin əsas mahiyyəti ondan ibarətdir ki, ABŞ dövləti Respublikamızın kitabxana işi sahəsində gözə çarpan çatışmazlıqları aradan qaldırmaq, kitabxanalar ilə rayon ictimaiyyəti arasındakı əlaqələri genişləndirmək, onlara göstərilən xidmət mədəniyyətinin səviyyəsini yüksəltmək, kitabxana fondlarını zənginləşdirmək, bu sahədə xarici ölkələrdə əldə edilmiş qabaqcıl təcrübəni yerlərdə tətbiq etmək və bu yolla da rayon və şəhər kitabxanalarını, yalnız oxuculara kitab verib-alan mədəniyyət müəssisəsindən istifadəçilərin, eyni zamanda bütün rayon əməkçilərinin ən çox maraq göstərəcəyi, müraciət edəcəyi ictimai informasiya mərkəzinə çevirmək, vətəndaş cəmiyyətinin yaradılmasında kitabxanaların rolunu artırmaq konsepsiyasından ibarətdir. Bu proqramın həyata keçirilməsində hələlik Respublikamızın 20 rayon mərkəzi kitabxanası iştirak edir. Bunlar aşağıdakılardan ibarətdir: Gəncə, Naxçıvan, Lənkəran, Mingəçevir, Qax, Salyan, Qəbələ, Qobustan, İsmayıllı, Kürdəmir, Neftçala, Xaçmaz, Dəvəçi, Zaqatala, Ağcabədi, Quba, Əlibayramlı, Bərdə rayonları. Daha iki rayon isə yaxın günlərdə müəyyən ediləcəkdir. Gələcəkdə isə bu əhəmiyyətli proqramın həyata keçiriləcəyi rayonların əhatə coğrafiyası daha da genişləndiriləcəkdir.

Bu tədbiri əməli şəkildə həyata keçirmək üçün ABŞ dövlətinin Bakıda fəaliyyət göstərən səfirliyi nəzərdə tutulan hər bir rayon Mərkəzi Kitabxanasına beş kompüter, bir ədəd printer, bir ədəd skaner, bir generator (rayonlarda işıq sönərkən İnternet əlaqəsinin kəsilməməsi üçün), İnternet xətti, bir ədəd televizor və s. avadanlıq (stol, stul və s.) hədiyyə vermişdir. Bütün bunlarla yanaşı, səfirlik rayonun kitabxana fondlarının zənginləşdirilməsi üçün elmin müxtəlif sahələrinə aid Azərbaycan və ingilis dillərində qiymətli ədəbiyyat, ensiklopediyalar, məlumat-soraq kitabları, bədii ədəbiyyat, kassetlər, disklər və s. bağışlamışdır. Layihənin birinci qolu kitabxanaların inkişafına xidmət edirsə, ikinci əsas məqsədi kitabxanaları müasir anlamda Məlumat-İnformasiya Mərkəzinə çevirməkdən ibarətdir. Bunun üçün Mərkəzi Kitabxana dünya elektron məlumat mühitinə – İnternetə qoşulur və rayon kitabxanası istənilən vaxtda dünyanın istənilən nöqtəsi ilə əlaqə yarada bilir, müxtəlif mövzulara aid məlumat bazalarından bəhrələnməklə yanaşı, öz informasiya resurslarını təbliğ etmək imkanı əldə etmiş olur.

Bu Proqram kitabxanalar arasında işgüzar koordinasiyanın daha çevik aparılmasına, Regional kitabxana işçilərinin professional səviyyəsini artırmaq üçün nəzərdə tutulmuş tədris proqramları, seçilən trenerlərin ixtisas səviyyəsi, hədiyyə olaraq göndərilən kitab dəstləri, onların kitabxanalarda qeydiyyatı, verilən texniki avadanlıqların məqsədyönlü istifadəsi, bu işlərə rayon ictimaiyyətinin cəlb edilməsi və görülən digər tədbirlər bunu deməyə imkan verir ki, həmin layihə dövlət proqramının tərkib hissəsi kimi genişləndirilərsə Respublikamızda kitabxana işinin inkişafına çox böyük yardım edəcəyi şübhəsizdir. Ən başlıcası isə, bu gün Milli Kitabxanamızın bilavasitə istiqamətləndirə biləcəyi (əfsuslar olsun ki, belə təşəbbüs hələki yoxdur) Azərbaycanın region kitabxanaları ilə əlaqələr və rəsmi sənədlərin elektron mübadiləsi sistemi artıq fəaliyyətdə olardı (əlbəttə, bu halda söhbət İnternet və kompüter texnikası ilə təmin olunmuş kitabxana-informasiya mərkəzlərindən gedir). Digər tərəfdən tədris və treninq proqramlarının kitabxana-informasiya biliklərinin yüksək səviyyəli tədrisi prosesi üçün də əhəmiyyətli olardı. Bu işə cəlb edilən dinləyici auditoriyalarının əhatə dairəsinin genişləndirilməsində Mədəniyyət Nazirliyinin nəzdində fəaliyyət göstərən Mədəniyyət işçilərinin İxtisasartırma Mərkəzinin imkanlarından da istifadə etmək mümkündür. Çünki bu kurslarda Azərbaycanın bütün regionlarından kitabxana əməkdaşları iştirak edir.

***Zakirə Əliyeva,***
*Nizami adına*
***Ədəbiyyat İnstitutunun dissertantı***
***Əmin Əfəndiyev,***
***filologiya elmləri namizədi, dosent***

*(davamı növbəti sayımızda)*